# Nokia X2–00 İstifadəçi təlimatı

Məsələ 1.1

# Mündəricat


Təhlükəsizlik 4

Ümumi məlumat 5
Sizin cihaz haqqında 5
Şəbəkə xidmətləri 5
Birgə istifadə edilən yaddaş 6
Giriş kodları 6
Proqram yeniləmələri 6
Dəstək 8

Cihazın işə salınması 8
Düymələr və hissələr 8
Batareyanı daxil edin 9
SIM kartı yerləşdirin 9
Yaddaş kartını daxil etmək 10
İşə salmaq və söndürmək 11
Batareyanın doldurulması 11
Ekran 12
Əsas ekran 12
Klaviatura kilidi 13
GSM antennası 13
Siqnal işığı 13
Aksessuarlar 14

Zənglər 15
Zəng etmək və zəngə cavab vermək 15
Səsucaldan 15
Yığma üzrə qısa yol proqramları 15

Mətn yaz 16
Mətn yığımı rejimləri 16
Ənənəvi mətn yığımı 16
Sadələşdirilmiş mətn yığımı 16

Menyularda əməliyyatlar keçirin 17

Mesaj xidmətləri 17
Mətn və multimedia mesajları 17
Nokia Messaging Məktubu 19
Nokia Messaging SM 19
Fləş mesajları 20
Nokia Xpress audio mesajları 20
Səs mesajları 20
Mesaj parametrləri 20

Kontaktlar 21

Jurnal 21

Musiqi 22
Media pleyer 22
FM radio 23

Kamera və video 23

Fotoşəkillər 24

Parametlər 25
Rejimlər 25
Melodiyalar 25
Ekran 25
Tarix və vaxt 26
Sürətli düymələr 26
Sinxronlaşdırma və surətçıxarma 26
Əlaqə 27
Zəng və telefon 28
Aksessuarlar 29
Konfiqurasiya 29
Zavod parametrlərini bərpa et 29

Proqramlar 29
Zəngli saat 29
Qalereya 30
Əlavələr 30
Səsyazan 30

Veb ya İnternet 31
Veb xidmətlə əlaqə qur 31

Ovi-yə keçmək 31

SIM xidmətləri 32

Ətraf mühitin qorunması üzrə məsləhətlər 32

Enerjiyə qənaət 32
Tullantıların təkrar istifadəsi 32

Məhsul və təhlükəsizlik üzrə məlumat 33

İndeks 39

# Təhlükəsizlik

Bu sadə göstərişləri oxuyun. Bu göstərişlərə əməl olunmaması təhlükəli və ya qeyri-qanuni ola bilər. Daha ətraflı məlumat üçün istifadəçinin təlimatının tam mətnini oxuyun.

## TƏHLÜKƏSİZ İŞƏ SALIN

Simsiz telefonların istifadəsi qadağan edildiyi hallarda və ya bunun nəticəsində maneə və ya təhlükə törədilə bilərsə, telefonu işə salmayın.

## YOL TƏHLÜKƏSİZLİYİ BİRİNCİ GƏLİR

Bütün yerli qanunlara riayət edin. Avtomobili idarə edərkən əllərinizi idarə üçün boş saxlayın. Avtomobili idarə edərkən siz ilk növbədə yol təhlükəsizliyi qaydalarını düşünməlisiniz.

## MÜDAXİLƏ

Bütün simsiz telefonlar maneələrə həssas ola bilər və bu onların iş keyfiyyətlərinə təsir göstərə bilər.

## QADAĞAN EDİLƏN YERLƏRDƏ SÖNDÜRÜN

Bütün məhdudiyyətlərə riayət edin. Cihazı təyyarədə, tibbi cihazların, yanacağın və ya partlayıcıların yanında söndürün.

## KEYFİYYƏTLİ XİDMƏT

Yalnız müvafiq ixtisasa malik olan işçilər bu məhsulu quraşdıra və ya təmir edə bilər.

## AKSESSUARLAR VƏ BATAREYALAR

Yalnız təsdiq edilmiş aksessuar və batareyalardan istifadə edin. Uyğun olmayan məhsulları qoşmayın.

## SUYA DAVAMLILIQ

Sizin telefon suya davamlı deyil. Onu quru vəziyyətdə saxlayın.

# Ümumi məlumat

## Sizin cihaz haqqında

Bu təlimatda təsvir edilmiş simsiz cihaz EGSM 850, 900, 1800, 1900 MHz şəbəkələri-da istifadə üçün təsdiq edilmişdir. Şəbəkə haqqında daha ətraflı məlumat əldə etmək üçün xidmət provayderinizlə əlaqə saxlayın.

Cihazınızda üçüncü tərəf internet saytları üçün əvvəlcədən qurulan əlfəcinlər və bəndlər ola bilər və sizə üçüncü tərəf saytlara daxil olmağa imkan verə bilər. Bunlar Nokianın himayəsində deyil və Nokia onlara görə məsuliyyət daşımır. Əgər siz belə saytlara daxil olsanız, təhlükəsizlik və ya tərkib üçün ehtiyat tədbirlərini həyata keçirin.

**Xəbərdarlıq:**
Zəngli saat istisna olmaqla bu cihazın bütün imkanlarının istifadəsi üçün telefon işə salınmalıdır. Simsiz cihaz maneə və ya təhlükə törədə biləcəyi hallarda telefonu işə salmayın.

Bu cihazdan istifadə edərkən bütün qanunlara riayət edin və müəllif hüquqları da daxil olmaqla, yerli adətlərə, digər şəxslərin şəxsi işlərinə və qanuni hüquqlarına hörmət edin. Müəlliflik hüquqlarının mühafizəsi müəyyən şəkillərin, zəng siqnalları melodiyalarının və digər məzmunlu funksiyaların surətinin çıxarılmasına, dəyişdirilməsinə və ya köçürülməsinə mane ola bilər.

Cihazınızın yaddaşında saxladığınız bütün zəruri məlumatın ehtiyat nüsxəsini çıxarın və ya yazılı qeyd edin.

Digər cihaza qoşularkən təhlükəsizliklə bağlı ətraflı məlumatı əldə etmək üçün onun istifadə təlimatını oxuyun. Uyğun olmayan məhsulları qoşmayın.

Bu təlimatlardakı şəkillər cihazınızın ekranındakından fərqli ola bilər.

Cihazınız haqqında digər mühüm məlumatları bilmək üçün istifadəçinin təlimatlarına müraciət edin.

## Şəbəkə xidmətləri

Telefonun istifadəsi üçün Sizin simsiz xidmət provayderinə ehtiyacınız var. Bəzi xüsusiyyətlər bütün şəbəkələrdə mövcud deyil; digər xüsusiyyətlər onlardan istifadə etməyiniz üçün Sizdən xidmət təminatçınızla xüsusi razılıq əldə etməyinizi tələb edə bilər. Şəbəkə xidmətlərinə məlumatın ötürülməsi daxildir. Ev şəbəkəsi və ya digər şəbəkələr üzərindən rouminq qiymətləri barədə təfərrüatlar üçün xidmət provayderinizlə əlaqə saxlayın. Sizin xidmət təminatçınız hansı dəyişikliklərin tətbiq olunacağını izah edə bilər. Bəzi şəbəkələr sizin bu cihazın TCP/IP protokolları və dildən asılı olan simvollarla işləyən WAP 2.0 protokolları (HTTP və SSL) kimi şəbəkə dəstəklənməsini tələb edən bəzi xüsusiyyətlərini necə istifadə edəcəyinizə təsir edən məhdudiyyətlər qoya bilər.

Sizin xidmət provayderiniz tələb edə bilər ki, cihazınızda quraşdırılmış müəyyən funksiyalar istifadə edilməsin və aktivləşdirilməsin. Bu halda bu funksiyalar Sizin menyunuzda görünməyəcək. Sizin cihazda həmçinin menyu adları, menyu sırası və nişanlar kimi tələbə uyğunlaşdırılmış elementlər də ola bilər.

## Birgə istifadə edilən yaddaş

Bu cihazın aşağıda göstərilən elementləri yaddaşı birgə istifadə edə bilər: multimedia mesajlaşma (MMS), elektron poçt proqramı, cəld mesajlaşma. Bu elementlərin birinin və ya daha çoxunun istifadəsi yaddaşdan birgə istifadə edən digər elementlər üçün yaddaş həcmini azalda bilər. Əgər sizin cihazınız yaddaşın dolu olması barədə xəbərdarlıq edərsə, birgə yaddaşda saxlanılmış məlumatların bir neçəsini silin.

## Giriş kodları

Təhlükəsizlik kodu cihazınızı icazəsiz istifadədən mühafizə etməkdə kömək edir. Əvvəlcədən qurulmuş kod 12345. Siz kodu yarada və dəyişə və həmçinin cihazı kodu tələb etdiyi üçün qura bilərsiniz. Kodu gizli və cihazınızdan ayrı olan təhlükəsiz yerdə saxlayın. Əgər siz kodu unutmusunuzsa və cihaz kilidlənibsə, cihazın texniki xidmətə ehtiyacı yaranacaq. Əlavə tariflər tətbiq oluna və cihazınızdakı bütün şəxsi məlumatınız silinə bilər. Ətraflı məlumat üçün Nokia Care nöqtəsinə yaxud cihaz dilerinizlə əlaqə saxlayın.

SIM kartla birgə verilən PIN kod kartı icazəsiz istifadədən qoruyur. Bəzi SIM kartlarla birgə verilən PIN 2 kodu müəyyən xidmətlərə daxil olmaq üçün tələb olunur. Əgər PIN və ya PIN2 kodunu ardıcıl olaraq üç dəfə yanlış daxil etsəniz sizdən PUK və ya PUK2 kodu tələb olunacaq. Əgər bu kodları bilmirsinizsə, xidmət təminatçınızla əlaqə saxlayın.

SİM kartınızın təhlükəsizlik modulunda yerləşən məlumata giriş əldə etmək üçün modul PİN tələb olunur. Rəqəmli imza üçün imzalanan PİN tələb oluna bilər. Məhdudlaşdırma parolu zəng məhdudiyyəti xidmətindən istifadə olunan zaman tələb olunur.

Cihazınızın giriş kodlarından və təhlükəsizlik parametrlərindən necə istifadə etdiyini qurmaq üçün Menyu > Parametrlər > Təhlükə/-sizlik seçin.

## Proqram yeniləmələri

### Cihaz proqramı və tapşırıq yeniləmələri haqqında

Cihaz proqramı yeniləmələri və tapşırıq yeniləmələri ilə cihazınız üçün yeni xüsusiyyətləri və yenilənmiş fuksiyaları əldə edə bilərsiniz. Proqram yenilənməsi cihaz xüsusiyyətlərini də təkminləşdirə bilər.

Cihaz proqramını yeniləməmişdən əvvəl şəxsi məlumatınızın nüsxəsini yaratmağınız məsləhətdir.

**Xəbərdarlıq:**
Əgər Siz proqram yeniləməsini yükləsəniz, yükləmə prosesi bitənə qədər və cihaz yenidən işə düşənə qədər cihazdan istifadə edə bilməyəcəksiniz və hətta təcili yardım zəngləri də etmək mümkün olmayacaq. Yeniləmənin yüklənməsini qəbul etməzdən əvvəl məlumatın nüsxəsinin çıxarıldığından əmin olun.

Proqram yeniliklərinin yüklənməsi böyük həcmdə məlumat ötürülməsinə səbəb ola bilər (şəbəkə xidməti).

Batareyanın kifayət qədər dolu olduğuna əmin olun və ya yeniləməyə başlamazdan əvvəl adapteri qoşun.

Cihaz proqramınızı və ya tapşırıqları yenilədikdən sonra, istifadəçi təlimatındakı göstərişlər artıq yeni olmaya bilər.

## Kompyuterinizdən istifadə edərək cihaz proqramını yeniləyin

Cihaz proqramını yeniləmək üçün siz Nokia Software Updater PC proqramını istifadə edə bilərsiniz. Cihaz proqramını yeniləmək üçün sizə uyğun gələn kompyuter, yüksək sürətli internet əlaqəsi və cihazınızı kompyuterə qoşmaq üçün uyğun gələn USB məlumat kabeli lazımdır.

Ətraflı məlumat əldə etmək və Nokia Software Updater proqramını yükləmək üçün bu səhifəyə keçin www.nokia.com/softwareupdate.

## Mövcud proqramı yeniləyin

Sizin xidmət təminatçınız cihazın proqram təminatının yeniləmələrini hava üzərində birbaşa cihaza göndərə bilər (şəbəkə xidməti). Bu opsiya sizin qurğunuzdan asılı olaraq mövcud olmaya bilər.

Proqram yeniliklərinin yüklənməsi böyük həcmdə məlumat ötürülməsinə səbəb ola bilər (şəbəkə xidməti).

Batareyanın kifayət qədər dolu olduğuna əmin olun və ya yeniləməyə başlamazdan əvvəl adapteri qoşun.

**Xəbərdarlıq:**
Əgər siz proqram təminatının yeniləməsini quraşdırırsınızsa quraşdırma tamam olduğuna qədər və cihaz təkrar işə salınan qədər siz cihazdan hətta fövqəladə zənglər üçün istifadə edə bilməzsiniz. Yeniləmənin quraşdırmasını qəbul etməzdən əvvəl məlumatınızın rezerv nüsxəsini mütləq çıxarın.

### Proqram təminatının yeniləməsini tələb etmək

1. Menyu > Parametrlər seçin və Telefon > Telefon yenilikləri.
2. Cari proqram versiyasını təsvir etmək və yenilənməyə ehtiyacın olub-olmadığını yoxlamaq üçün Cari proqr. detalları seçin.
3. Tel. proq-nı yüklə seçin və təlimatlara riayət edin.

4 Endirmədən sonra quraşdırma ləğv olunarsa, quraşdırmaya başlamaq üçün Proq. yeniləm. qur seçin.

Proqram təminatının yenilənməsi bir neçə dəqiqə çəkə bilər. Əgər quraşdırma ilə problemlər varsa, xidmət təminatçınızla əlaqə saxlayın.

## Dəstək

Məhsulunuzdan necə istifadə etməyi öyrənmək istədiyiniz və ya cihazın necə çalışdığı haqda əmin olmadığınız halda www.nokia.com/support və ya mobil cihazdan istifadə edərək www.nokia.mobi/support səhifəsinə keçin.

Əgər bunun köməyi ilə məsələ həll olunmasa, bu halda aşağıdakılardan birini edin:

- Cihazı söndürüb yandırın: cihazı söndürün və batareyanı çıxardın. Təxminən bir dəqiqədən sonra batareyanı yerinə qoyun və cihazı işə salın.
- İstehsalçının parametrlərini bərpa edin.
- Cihazınınız proqram təminatını yeniləyin.

Əgər məsələ yenə də həll olunmursa, Nokia ilə təmir üçün əlaqə saxlayın. www.nokia.com/repair sehifəsinə keçin. Cihazınızı təmirə göndərməkdən əvvəl həmişə cihazınızdakı məlumatın rezerv nüsxəsini çıxardın.

# Cihazın işə salınması

## Düymələr və hissələr

<table>
<tr><td>1</td><td>Ekran</td><td rowspan="7">
</td></tr>
<tr><td>2</td><td>Seçim düymələri</td></tr>
<tr><td>3</td><td>Navi™ düyməsi (diyirləmə düyməsi)</td></tr>
<tr><td>4</td><td>Zəng düyməsi</td></tr>
<tr><td>5</td><td>Klaviatura</td></tr>
<tr><td>6</td><td>Tamamlama/işəsalma düyməsi</td></tr>
<tr><td>7</td><td>Qulaqlıq</td></tr>
</table>

| | |
|---|---|
| 8 | Qulaqlıq birləşdiricisi |
| 9 | Adapter birləşdiricisi |
| 10 | USB port |
| 11–13 | Musiqi düymələri |
| 14 | Kameranın parıltılı işığı |
| 15 | Dinamik |
| 16 | Linza |
| 17 | Səs düymələri |
| 18 | Yaddaş kartı slotu |
| 19 | Çəkiliş düyməsi |




## Batareyanı daxil edin




1 Arxa örtüyü kənarlaşdırın.
2 Batareya əlaqələrini tapın və batareyanı daxil edin.
3 Arxa qapağı yerinə salın.

## SIM kartı yerləşdirin

SIM kart və onun kontaktları asanlıqla çızıqlar və ya əyilmə nəticəsində zədələnə bilər, bu baxımdan, kartı daxil, toxunan və ya çıxaran zaman ehtiyyatlı olun.



1 Arxa qapağı və batareyanı kənarlaşdırın.
2 SIM kart tutan aləti açın.
3 Əlaqə tərəfi aşağı olmaqla SIM kartı tutan alətə daxil edin.
4 Kart saxlayıcısını bağlayın.
5 Batareya və arxa qapağı yerinə taxın.

## Yaddaş kartını daxil etmək

Yalnız Nokia tərəfindən təsdiqlənmiş bu cihaz üçün uyğun olan MicroSD kartları istifadə edin. Nokia yaddaş kartları üçün təsdiqlənmiş sənaye standartlarından istifadə edir, amma bəzi kart modelləri bu cihaza tam uyğun olmaya da bilər. Uyğun olmayan yaddaş kartının istifadəsi yaddaş kartını, habelə cihazı zədələyə bilər, həmçinin kartda saxlanılan məlumat pozula bilər.

Cihazınız 16 QB qədər yaddaş həcmi ilə microSD kartlarını dəstəkləyir. Tək faylın ölçüsü 2 GB-dan artıq olmamalıdır.




1 Yaddaş kartı slotunun qapağını açın.
2 Qapağı kənara dartın.
3 Əlaqə üzlüyünü aşağı olmaqla yaddaş kartını slota daxil edin.
4 Yaddaş kartı slotunun örtüyünü bağlayın.

## İşə salmaq və söndürmək

İşəsalma düyməsini basıb saxlayın.

## Batareyanın doldurulması

Batareya istehsalçı tərəfindən artıq qismən doldurulmuşdur. Cihaz aşağı yükləəmə dərəcəsini göstərirsə, aşağıdakını edin:



1 Batareya yükləyəni divar elektrik oyuğuna qoşun.
2 Adapteri cihaza qoşun.
3 Cihaz tam yükləməni göstərdikdə adapteri cihazdan, sonra isə divar rozetkasından ayırın.

Batareyanı müəyyən müddət ərzində yükləməyə ehtiyac yoxdur və siz cihazdan yükləndiyi zaman istifadə edə bilərsiniz. Batareya tam boşaldıqda, yükləmə indikatorunun ekranda peyda olunduğuna yaxud zənglərin edilməsindən əvvəl bir neçə dəqiqə tələb oluna bilər.

## Ekran




1 Mobil şəbəkənin siqnal gücü
2 Batareya doldurulması statusu
3 İndikatorlar
4 Şəbəkənin adı və ya operator loqosu
5 Saat
6 Tarix (əgər baş ekran rejimi qeyri-aktivdirsə)
7 Ekran
8 Sol seçmə düyməsinin funksiyası
9 Diyirləmə düyməsinin funksiyası
10 Sağ seçmə düyməsinin funksiyası

Siz sol və sağ seçmə düyməsinin funksiyasını dəyişdirə bilərsiniz. Bax "Sürətli düymələr" s. 26.

## Əsas ekran

Baş ekranda sevimli tapşırıqlarınıza qısa girişi əldə edə bilərsiniz.

Menyu > Parametrlər və Displey > Ev ekranı seçin.

**Baş ekranı aktivləşdirin**
Ev ekranı rejimi > Yandır seçin.

**Baş ekranı təşkil edin və şəxsiləşdirin**
Görünt. şəxsiləşdir seçin.

**Baş ekranı aktivləşdirmək üçün düyməni seçin**
Ev ekranı düyməsi seçin.

**İş masasında naviqasiya**
Siyahıda naviqasiya üçün yuxarı və ya aşağı diyirləyin və Seç, Göstər yaxud Düzəlt seçin. Oxlar digər məlumatların olduğunu göstərir.

**Naviqasiyanı dayandırmaq**

Çıx seçin.

## Klaviatura kilidi

Təsadüfi düymə sıxılmalarının qarşısını almaq üçün Menyu seçin, və 3.5 saniyə ərzində klaviaturanı kilidləmək üçün * basın.

Klaviaturanın kilidini açmaq üçün Kilidi aç seçin, və 1.5 saniyə müddətində * sıxın. Təhlükəsizlik klaviatura kilidi aktivdirsə, tələb olunduğu zaman təhlükəsizlik kodunu daxil edin.

Cihaz istifadə olunmadıqda müəyyən vaxtdan sonra klaviaturanın avtomatik bağlanmasından ötrü seçim etmək üçün Menyu > Parametrlər > Telefon > Avto. klav. kilidi > Aktivləşdir seçin.

Klaviatura kilidli olduqda zəngə cavab vermək üçün zəng düyməsini basın. Siz zəngi bitirdikdə və ya rədd etdikdə klaviatura avtomatik bağlanır.

Cihaz və ya klaviatura kilidləndikdə siz cihazınızda proqramlaşdırılmış rəsmi təcili yardım nömrələrinə zəng vura bilərsiniz.

## GSM antennası



Cihazınızda daxili və xarici antenalar ola bilər. Antena ötürdükdə və ya qəbul etdikdə lazım olmazsa antena sahələrinə toxunmaqdan çəkinin. Antenaya toxunma rabitə keyfiyyətinə təsir edir və əməliyyat zamanı cihazın daha çox enerjidən istifadəsinə səbəb ola bilər, bu isə batareyanın ömrünü azalda bilər.

Şəkildə GSM antennası boz rənglə nişanlanıb göstərilir.

## Siqnal işığı

Kamera işığı siqnal işığı kimi istifadə oluna bilər. Baş ekranda siqnal işığını yandırmaq və ya söndürmək üçün * basın və saxlayın.

Siqnal işığını heç kimin gözünə tutmayın.

# Aksessuarlar

## USB kabelini qoşmaq

USB konnektorunun qapağını açın və USB kabelini cihaza qoşun.




## Qulaqlığı qoşmaq

**Xəbərdarlıq:**
Qulaqlıqların istifadə edilməsi sizin xarici səsləri eşitmək imkanınıza təsir edə bilər. Sizin təhlükəsizliyiniz üçün təhlükəli olan yerlərdə qulaqlıqları istifadə etməyin.

Bu cihazla istifadə edilməsi Nokia tərəfindən təsdiq edilənlərdən başqa hər hansı bir kənar cihazı və ya qulaqlığı Nokia AV konnektora qoşduqda, səs səviyyəsinə xüsusi diqqət yetirin.

Siqnal yaradan məhsulları qoşmayın, onlar telefonunuza zərər verə bilər. Heç bir elektrik mənbəyini Nokia AV konnektora qoşmayın.



## Qayışı qoşmaq



# Zənglər

## Zəng etmək və zəngə cavab vermək

### Zəng etmək

Ölkə və ərazi kodu lazım olduğu halda ilə birgə telefon nömrəni daxil edin və zəng düyməsini basın.

### Daxil olan zəngə cavab

Zəng düyməsini basın.

### Zəngdən imtina

Tamamlama düyməsini basın.

### Səsi tənzimləmək

Telefon zəngi zamanı səs düymələrindən istifadə edin.

## Səsucaldan

Əgər mümkündürsə, siz zəng zamanı ucadanışandan yaxud qulağcıqdan istifadə etmək üçün Səsucald və ya Normal seçə bilərsiz.

**Xəbərdarlıq:**
Davamlı yüksək səs dərəcəsində qulaq asmaq sizin eşitmə qabiliyyətinizə mənfi təsir edə bilər. Orta səs dərəcəsində olan müsiqiyə qulaq asın və dinamikdən istifadə olunarkən cihazı qulağınıza yaxın tutmayın.

## Yığma üzrə qısa yol proqramları

### Telefon nömrəni rəqəm düyməsinə təyin etmək

Seçin Menyu > Kontaktlar > Daha artıq > Tez zənglər, istədiyiniz nömrəyə diyirləyin (2-9) və Təyin et seçin. İstədiyiniz telefon nömrəni daxil edin və yaxud Axtar və saxlanılmış kontaktı seçin.

### Sürətli yığımı aktiv etmək

Menyu > Parametrlər > Zəng et > Tez zəng > Aktiv et seçin.

### Sürətli yığım ilə zəng etmək
İş masasında istədiyiniz rəqəm düyməsini basıb saxlayın.

# Mətn yaz

## Mətn yığımı rejimləri
Mətni daxil etmək üçün, məsələn, mesaj yazarkən, ənənəvi və ya sadələşdirilmiş mətn yığımından istifadə edə bilərsiniz.

Abc, abc və ABC işarələrin baş yaxud kiçik reyestrdə olduğunu göstərir. 123 reqəm rejimini göstərir.

### Mətn yığımı rejimləri arasında keçid
Seçimlər seçin və basın. Bütün dillər proqnozlaşdırılmış mətn daxil etmə ilə dəstəklənmir.

### İşarələrin reyestrləri arasında keçid
Basın #.

### Hərf və rəqəm rejimləri arasında keçid
# basıb saxlayın.

### Yazı dilini qurmaq
Seçimlər > Daha artıq > Yazı dili seçin.

## Ənənəvi mətn yığımı

### Sözü yazmaq
Arzuolunan simvol görünənə qədər 2-9 rəqəm düyməsini təkrar-təkrar basın. Mövcud simvollar seçilən yazı dilindən asılıdır. Daxil etmək istədiyiniz növbəti hərf əvvəlki ilə eyni düymədə yerləşirsə, kursor görünənə qədər gözləyin və hərfi daxil edin.

### Adi punktuasiya işarələrini daxil etmək
1 təkrar-təkrar basın.

### Xüsusi işarələri daxil etmək
* basın və işarəni siyahıdan seçin.

### Boşluğu daxil etmək
Basın 0.

## Sadələşdirilmiş mətn yığımı
Sadələşdirilmiş mətn yığımı yeni sözləri əlavə edə bildiyiniz quraşdırılmış lüğət üzərində əsaslanır.

**Sözü yazmaq**

Rəqəm düymələrini basın, 2-9. Bir hərf üçün hər düyməuə yalnız bir dəfə basın.

**Sözü təsdiqləmək**

Sağa diyirləyin yaxud boşluq əlavə etmək üçün **0** basın.

**Düzgün sözü seçmək**

Təklif olunan söz düzgün deyilsə, * təkrar olaraq basın və istədiyiniz sözü siyahıdan seçin.

**Sözü lüğətə əlavə etmək**

Əgər sözdən sonra ? işarəsi göstərilirsə, yazmaq istədiyiniz söz lüğətdə yoxdur. Sözü lüğətə əlavə etmək üçün Hərfbəh. seçin. Sözü ənənəvi mətn yığımından istifadə edərək daxil edin və Ya. saxla seçin.

**Mürəkkəb sözü yazmaq**

Sözün birinci hissəsini yazın və onun təsdiqi üçün sağa diyirləyin. Sözün növbəti hissəsini yazın və yenindən təsdiqləyin.

# Menyularda əməliyyatlar keçirin

Cihaz funksiyaları menyulara qruplaşdırılıb. Menyu funksiyaların və ya seçimlərin hamısı burada göstərilməyib.

İş masasında Menyu və arzu edilən menyunu və yarım menyunu seçin.

**Cari menyu səviyyəsindən çıxış**

Seçin Çıx yaxud Geri.

**İş masasına qayıtmaq**

Tamamlama düyməsini basın.

**Menyu görüntüsünü dəyişmək**

Menyu > Seçimlər > Əsas mnyu görnş seçin.

# Mesaj xidmətləri

Siz mətn, multimedia, audio və fleş mesajlarını göndərə və ala bilərsiniz. Siz həmçinin elektron poçtunuzu da idarə edə bilərsiniz. Mesaj xidmətləri yalnız o halda istifadə edilə bilər ki, onlar şəbəkə və ya xidmət təminatçısı tərəfindən dəstəklənirlər.

## Mətn və multimedia mesajları

Siz mesaj yarada bilərsiniz və ona, misal üçün, şəkil əlavə edə bilərsiniz. Fayl əlavə edildikdə sizin telefon avtomatik olaraq mətn mesajını multimedia mesajına dəyişir.

## Mətn mesajları

Cihazınız bir mesaj həddindən əlavə mətn mesajlarını dəstəkləyir. Uzun mesajlar iki və daha çox mesaj kimi göndərilir. Sizin xidmət provayderiniz sizdən müvafiq ödəniş tələb edə bilər. Vurğu və digər işarələri istifadə edən simvollar və ya bəzi dil seçimləri daha çox yer tutur və bir mesaj çərçivəsində göndərilən simvolların sayını məhdudlaşdırır.

Qalan simvolların ümumi sayı və göndərmək üçün lazım olan mesaj sayı göstərilir.

Mesajları göndərmək üçün aparatınızda düzgün mesaj mərkəzinizin nömrəsi saxlanılmalıdır. Adətən bu nömrə avtomatik olaraq SIM kartınız vasitəsilə quraşdırılır.

Nömrəni əl ilə təyin etmək üçün aşağıdakını edin:

1. Menyu > Mesajlar > Daha artıq > Mes. par-ləri > Mətn mesajları > Mesaj mərkəzi seçin.
2. Adı və xidmət təminatçınızın təqdim etdiyi nömrəni daxil edin.

## Multimedia mesajları

Multimedia mesajı mətn, şəkillər, səs və ya video kliplərdən ibarət ola bilər.

Yalnız müvafiq elementləri olan cihazlar multimediya mesajlarını qəbul edə və ekranda nümayiş edə bilər. Mesajın görünüşü qəbul edən cihazdan asılı olaraq fərqli ola bilər.

Simsiz şəbəkə MMS mesajlarının ölçüsünü məhdudlaşdıra bilər. Daxil edilmiş şəkil bu limiti aşarsa, cihaz onu MMS-lə göndərilə biləcək ölçüyə qədər balacalaşdıra bilər.

**Mühüm:** Mesajları ehtiyatla açın. Mesajlarda zərərli proqramlar və ya sizin cihaz və ya kompüteriniz üçün zərərli olan digər proqramlar ola bilər.

Multimedia mesaj xidmətinin (MMS) mümkünlüyü və abunəlik üçün xidmət provayderiniz ilə əlaqə qurun.

## Mesaj yaratmaq

1. Menyu > Mesajlar > Mesaj yarat seçin
2. Mesajınızı yazın.

   Xüsusi işarəni yaxud emosiya işarəsini daxil etmək üçün Seçimlər > Simvolu daxil et seçin.

   Mesaja obyekt qoşmaq üçün Seçimlər > Ob-ti yerləşdir seçin. Mesaj növü avtomatik olaraq multimedia mesajına dəyişir.
3. Qəbuledənləri əlavə etmək üçün Göndər və qəbuledəni seçin.

   Telefon nömrəsini yaxud poçt ünvanını əl rejimində daxil etmək üçün Nömrə ya e-poçt seçin. Telefon nömrəni daxil edin yaxud El. poçt seçin və poçt ünvanını daxil edin.
4. Göndər seçin.

Multimedia mesajları ekranın yuxarısında işarə ilə göstərilir.

Xidmət təminatçıları mesajın növündən asılı olaraq müxtəlif ödəniş tətbiq edə bilərlər. Ətraflı məlumat üçün xidmət təminatçınızla əlaqə saxlayın.

## Nokia Messaging Məktubu

Məktub oxumaq, yazmaq və göndərmək üçün cihazınız ilə müxtəlif təminatçılar vasitəsilə məktub hesabınıza daxil olun.

### Məktub hesabını yaradın

Menyu > Mesajlar > E-poçt seçin.

Əgər sizin hələ məktub hesabınız yoxdursa, siz Ovi Mail xidmətinə malik Nokia hesabını yarada bilərsiniz.

1 Mail on Ovi-ni əldə et seçin.
2 Təlimatlara əməl edin.

### Məktubu oxuyun və göndərin

Menyu > Mesajlar > E-poçt seçin.

**Məktubu oxuyun**
Məktubu seçin və Aç.

Əlavələrə məsələn, şəkillərə malik məktublar kağız sıxacağı işarəsi ilə qeyd olunub. Bəzi əlavələrə sizin cihaza uyğun olmaya bilər və sizin cihazda əks olunmaya bilər.

**Əlavələrə baxın**
Əlavəni seçin və Göstər.

**Məktub yazın**
Seçimlər > Yenisini yarat seçin.

**Məktuba fayl əlavə edin**
Seçimlər > Fayl əlavə et seçin.

**Məktub göndərin**
Göndər seçin.

**Məktub tapşırığını bağlayın**
Çıx seçin.

## Nokia Messaging SM

Sürətli mesajlaşma (SM) ilə siz cihazınızdan istifadə edərək digər onlayn istifadəçilərlə söhbət edə bilərsiniz. Siz cihazınız tərəfindən dəstəklənən SM icması üçün mövcud

hesabı istifadə edə bilərsiniz. Əgər siz SM xidmətində qeydiyyatdan keçməmisinizsə, kompyuteriniz və ya cihazınızı istifadə edərək siz dəstəklənən SM xidməti üçün hesab yarada bilərsiniz. SM xidmətindən asılı olaraq menyular fərqlənə bilər.

Xidmətə qoşulmaq üçün Menyu > Mesajlar > Daha artıq > Cəld mesajlaşma seçin və təlimatlara riayət edin.

## Fləş mesajları

Fləş mesajları qəbul zamanı ekranda dərhal göstərilən mətn mesajlarıdır.

Menyu > Mesajlar seçin.

1. Daha artıq > Digər mesajlar > Fləş mesajı seçin.
2. Mesajınızı yazın.
3. Göndər və kontaktı seçin.

## Nokia Xpress audio mesajları

Rahat şəkildə MMS-dən istifadə edərək audio mesajları yaradın və göndərin.

Menyu > Mesajlar seçin.

1. Daha artıq > Digər mesajlar > Audio mesaj seçin. Səs yazan açılır.
2. Yazını idarə etmək üçün işarələri seçin.

   ● — Mesajınızı yazın.

   ▯▯ — Yazıya pauza verin.

   ■ — Yazını dayandırın.
3. Göndər və kontaktı seçin.

## Səs mesajları

Səs poçt qutusu abunəyə yazıla biləcəyiniz bir şəbəkə xidmətidir. Ətraflı məlumat üçün xidmət təminatçınızla əlaqə saxlayın.

### Səs poçt qutusuna zəng et

1 basıb saxlayın.

### Səs poçt qutusunu redaktə et

Menyu > Mesajlar > Daha artıq > Səsli mesajlar və Səsli poçt. nömrəsi seçin.

## Mesaj parametrləri

Seçin Menyu > Mesajlar və Daha artıq > Mes. par-ləri.

Aşağıdakılardan seçin:

**Ümumi para.** — Mesajlar üçün şrift ölçüsünü qurun, qrafik gülümsəyən üzləri və çatdırılma hesabatlarını aktivləşdirin.

**Mətn mesajları** — Mətn mesajları və SMS poçtu üçün mesaj mərkəzlərini qurun.

**Multimedia mesajlar** — Çatdırılma hesabatlarına və multimedia mesajları və elanların qəbuluna icazə verin və multimedia mesajlarına aid digər üstünlükləri qurun.

**Servis mesajları** — Xidmət mesajlarını aktivləşdirmək və xidmət mesajlarına aid olan üstünlükləri təyin etmək.

# Kontaktlar

Menyu > Kontaktlar seçin.

Siz adları və telefon nömrələrini cihaz yaddaşında və SİM kartda saxlaya bilərsiniz. Cihaz yaddaşında siz kontaktları nomrələr və mətn parçaları ilə saxlaya bilərsiniz. SIM kartda saxlanılmış adlar və nömrələr işarəsilə göstərilir.

### Kontaktı əlavə etmək

Yenisini əlavə et seçin.

### Kontakta təfsilatlar əlavə etmək

İstifadə olunan yaddaşın Telefon yaxud Telefon və SIM olduğunu yoxlayın. Adlar seçin, ada doğru diyirləyin və Detallar > Seçimlər > Detal əlavə et seçin.

### Kontakt axtarışı

Adlar seçin və kontaktlar siyahısını nəzərdən keçirin yaxud adın ilk simvollarını daxil edin.

### Kontaktın digər yaddaşda nüsxəsinin çıxartmaq

Seçin Adlar, kontakt üzrə diyirləyin və seçin Seçimlər > Daha artıq > Kontaktı kopyala. SİM kartda hər bir ad üçün yalnız bir telefon nömrəsini saxlaya bilərsiniz.

### Kontaktları harada saxlanacağını, kontaktların necə nümayiş olunacağını və kontaktların yaddaş istifadəsini seçin

Seçin Daha artıq > Parametrlər.

### Vizitkanı göndərmək

Əlaqə siyahısında əlaqəyə keçin və Seçimlər > Daha artıq > Biznes kart seçin. Siz vCard standartını dəstəkləyən cihazlardan biznes kartları göndərə və ya qəbul edə bilərsiniz.

# Jurnal

Zəngləriniz, mesajlarınız, məlumat və sinxronlaşdırma hadisələriniz haqda məlumata baxmaq üçün Menyu > Qeydiyyat və müvafiq variantı seçin.

**Qeyd:** Xidmət provayderinin zənglər və xidmətlər üçün hesab fakturaları şəbəkənin xüsusiyyətlərindən, hesabların hazırlanması qaydasından və sair faktorlardan asılı olaraq fərqlənə bilər.

# Musiqi

## Media pleyer

Cihazınıza mahnılara və ya digər MP3-lərə və yaxud AAC formatında olan səs fayllarına qula asmaq üçün media pleyeri daxildir.

**Xəbərdarlıq:**
Davamlı yüksək səs dərəcəsində qulaq asmaq sizin eşitmə qabiliyyətinizə mənfi təsir edə bilər. Orta səs dərəcəsində olan müsiqiyə qulaq asın və dinamikdən istifadə olunarkən cihazı qulağınıza yaxın tutmayın.

Menyu > Musiqi > Musiqim > Media pleyerə get seçin.

Media pleyerini media pleyerinin düymələri yaxud ekrandakı virtual düymələr vasitəsilə idarə edin.

**Səslənməyə başlamaq yaxud pauza etmək**
Basın ▶||.

**Cari mahnının əvvəlinə keçmək**
Basın |◀◀.

**Əvvəlki mahnıya keçmək**
İki dəfə |◀◀ basın.

**Sonraki mahnıya keçmək**
Basın ▶▶|.

**Cari mahnıda geriyə yaxud irəli keçid**
|◀◀yaxud ▶▶| basıb saxlayın.

**Səsi tənzimləmək**
Səs düymələrindən istifadə edin.

**Media pleyerinin səsini söndürmək ya aktiv etmək**
Basın **#**.

**Media pleyerini arxa planda səsləndirmək**
Tamamlama düyməsini basın.

**Media pleyerini bağlamaq**
Tamamlama düyməsini basıb saxlayın.

## FM radio

Sizin cihaz qurulmuş antennaya malik radio stansiyalara qulaq asmağa imkan verən Nokia XpressRadio-nu dəstəkləyir.

**Xəbərdarlıq:**
Davamlı yüksək səs dərəcəsində qulaq asmaq sizin eşitmə qabiliyyətinizə mənfi təsir edə bilər. Orta səs dərəcəsində olan müsiqiyə qulaq asın və dinamikdən istifadə olunarkən cihazı qulağınıza yaxın tutmayın.

Menyu > Musiqi > Radio seçin.

**Mümkün stansiyaları avtomatik axtar**

Seçimlər > Büt. stans. axtar seçin. Ən mükəmməl nəticə üçün küçədə olduqda və ya pəncərəyə yaxın olduqda axtarış aparın.

**Daha yaxşı qəbula malik tezliyə avtomatik keçin**

RDS-in fəal olmasını yoxlayın. Seçimlər > Parametrlər > RDS seçin.

Avto-tezlik seçin.

**Yaxın stansiyanı axtarmaq**

Keçid düyməsini sola ya sağa basaraq saxlayın.

**Stansiyanı saxlamaq**

İstədiyiniz stansiyaya qurun və seçin Seçimlər > Stansiyanı saxla.

**Saxlanılnış stansiyalar arasında keçid**

Stansiyalar arasında keçid almaq üçün yuxarı yaxud aşağı diyirləyin və ya istədiyiniz stansiyanın yaddaşda yerinin müvafiq rəqəm düyməsini basın.

**Səsi tənzimləmək**

Səs düymələrindən istifadə edin.

**Qulaqcıq və ya mikrofondan istifadə edərək qulaq asın**

Seçimlər > Daha artıq > Çal seçin.

**Radionu arxa planda səsləndirmək**

Tamamlama düyməsini basın.

**Radionu bağlamaq**

Tamamlama düyməsini basıb saxlayın.

# Kamera və video

Sizin cihaz 2592x1944 piksel təsvirin fiksajlanmasına icazə verir.

### Kamera rejimi

**Kameranı açmaq**
İş masasında çəkiliş düyməsini basıb saxlayın.

**Miqyas artırılması yaxud azaldılması**
Yuxarı ya aşağı diyirləyin.

**Şəkil çəkmək**
Şəkil düyməsini basın.

**İlkin baxış rejimini və vaxtı qurmaq**
Seçimlər > Parametrlər > Şəkilə baxma vaxtı seçin.

Avtomatik taymeri aktiv etmək üçün Seçimlər seçib istədiyiniz seçimi edin.

### Video rejimi

**Videokameranı açmaq**
Çəkiliş düyməsini basıb saxlayın və sağa diyirləyin.

**Videoklip çəkilişinə başlamaq**
Şəkil düyməsini basın.

**Kamera və video rejimi arasında keçid**
Kamera yaxud video rejimində sola yaxud sağa diyirləyin.

## Fotoşəkillər

Şəkillərə və video kliplərə Fotoşəkillər proqramılə baxın.

Seçin Menyu > Şəkillər.

Aşağıdakılardan seçin:

**Fotoşəkillərim** — Şəkillərə kiçik şəkillər cədvəlində baxmaq. Siz şəkilləri tarix, ad və ya ölçü üzrə çeşidləyə bilərsiniz.

**Vaxt xətti** — Şəkillərə onların çəkildiyi ardıcıllığda baxın.

**Albomlarım** — Şəkilləri albomlar üzrə çeşidləyin. Siz albomları yarada, adlarını dəyişə və silə bilərsiniz. Albomu sildiyiniz halda onun daxilində olan şəkillər yaddaşdan silinmir.

Siz emal olunmayana qədər şəkillərə baxa, onları istifadə edə və ya onları redaktə edə bilməzsiniz.

**Şəkli fırlatmaq**
Seçimlər > Landşaft rejimi yaxud Portret rejimi seçin.

### Slayd nümayişinə baxmaq

Slayd nümayişi hal-hazırda seçilən qovluğun və ya albomun şəkillərindən istifadə edir.

1 Fotoşəkillərim, Vaxt xətti, yaxud Albomlarım seçin.
2 Seçin Seçimlər > Slayd nümayişi.
3 Seçin Slayd nümayiş. başla.

### Şəkilləri redaktə etmək

Siz, məsələn, şəkilləri fırlada, mövqeyini dəyişib, kəsib və parlaqlığını, kontrastını və rənglərini tənzimləyə bilərsiniz.

1 Fotoşəkillərim, Vaxt xətti yaxud Albomlarım daxilində şəkli seçin.
2 Seçin Seçimlər > Şəkli redaktə et.
3 Quraşdırma və ya dəyərləri yeniləmək üçün redaktə opsiyasını seçin və fırlatma düyməsini istifadə edin.

# Parametlər

## Rejimlər

Zəng gözləyirsiniz lakin zəng tonunun səslənməsini istəmirsiniz? Profillər adlanan müxtəlif parametr qrupları var ki, orada siz müxtəlif hadisə və şərait üzrə zəng tonlarını təyin edə bilərsiniz.

Menyu > Parametrlər > Profillər seçin.

İstədiyiniz profili və aşağıdakılardan seçin:

**Aktivləşdir** — Profili aktivləşdirmək.
**Şəxsiləşdir** — Profil parametrlərini dəyişmək.
**Müddətli** — Profili müəyyən vaxt ərzində aktiv olduğu üçün qurmaq. Profil üçün qurulmuş vaxt bitdiyi zaman əvvəlki profil aktivləşir.

## Melodiyalar

Siz seçilmiş aktiv rejimin melodiya parametrlərini dəyişə bilərsiniz.

Seç Menyu > Parametrlər > Tonlar. Siz eyni parametrləri Profillər menyusunda da tapa bilərsiniz.

## Ekran

Menyu > Parametrlər > Displey seçin.

Siz divar kağızına baxa və ya onu, hərf ölçüsünü və ya cihaz displeyi ilə bağlı digər əlamətləri dəyişə bilərsiniz.

## Tarix və vaxt

Menyu > Parametrlər > Vaxt və tarix seçin.

**Tarixi və vaxtı qurmaq**
Vaxt və tarix prmtr. seçin.

**Tarix və vaxt formatını qurmaq**
Tar. və vaxt formatı seçin.

**Vaxtı avtomatik şəkildə cari saat qurşağına uyğun olaraq yeniləmək**
Vaxt. avt. yenilənm. (şəbəkə xidməti) seçin.

## Sürətli düymələr

Şəxsi sürətli düymələrin köməyi ilə siz telefonda çox istifadə olunan funksiyalara tez bir zamanda giriş əldə edə bilərsiz.

Menyu > Parametrlər > Qısa yollarım seçin.

**Telefon funksiyalarını seçim düymələrinə təyin etmək**
Sağ seçim düyməsi yaxud Sol seçim düyməsi və siyahıdan funksiyanı seçin.

**Keçid düyməsi üçün qısa yol funksiyalarını seçmək**
Naviqasiya düyməsi seçin. İstədiyiniz istiqamətə doğru diyirləyin və Dəyiş yaxud Təyin et və siyahıdan funksiyanı seçin.

## Sinxronlaşdırma və surətçıxarma

Menyu > Parametrlər > Snx və rez. kop. seçin.

Aşağıdakılardan seçin:

**Ovi ilə sinxr.** — Şəxsi məlumatınızı Ovi ilə sinxronlaşdırın. Sinxronlaşdırmazdan əvvəl sizə Nokia hesabınızı qurmaq lazım olacaq. Baglan seçin və məlumatınızın sinxronlaşdırılması prosesi üzrə təlimatlandırılacaqsınız. Bu seçimin mövcudluğu fərqlənə bilər.

**Serverlə sinxr.** — Cihazınız və şəbəkə serveri (şəbəkə xidməti) arasında seçilmiş məlumatı sinxronlaşdırın ya köçürün.

**Telef. dəyişdir.** — Cihazınız və digər birisi arasında kontaktlarınız, təqvim qeydləriniz, qeydləriniz yaxud mesajlarınız kimi seçilmiş məlumatı sinxronlaşdırın ya köçürün.

**Rezr. kop. yarat** — Seçilmiş məlumatın rezerv nüsxəsini yaradın.

**Rezr. bərpa et** — Məlumatı rezerv nüsxədən bərpa edin. Rezerv nüsxə faylının təfsilatlarına baxmaq üçün seçin Seçimlər > Detallar.

## Əlaqə

Sizin telefonunuz məlumat ötürmək və qəbul etmək üçün digərqurğulara qoşulmağa imkan verən bir neçə funksiyaya malikdir.

## Bluetooth simsiz texnologiyası

Bluetooth texnologiyası sizə cihazınızı radiodalğalardan istifadə edərək uyğun olan Bluetooth cihazına 10 metrə daxilində (32 fut) qoşmaq imkanı verir.

Bu cihaz aşağıdakı profilləri dəstəkləyən Bluetooth texnologiyasına 2,1 + EDR uyğundur: Ümumi giriş, şəbəkə girişi, nəzarət, ucadan danışan, qulaqlıq, obyektin sıxılması, faylın ötürülməsi, yığma şəbəkəsi, SIM girişi, seriyalı port . Bluetooth texnologiyasını dəstəkləyən digər cihazlarla qarşılıqlı əlaqəni təmin etmək üçün Nokia tərəfindən bu cihaz üçün təsdiq edilmiş aksessuarlardan istifadə edin. Digər qurğuların bu qurğuya uyğun olması və ya olmamasını müəyyən etmək üçün həmin qurğuların istehsalçıları ilə əlaqə saxlayın.

Bluetooth texnologiyasından istifadə edən funksiyalar batareyadan istifadəni artırır və batareyanın ömrünü azaldır.

Sizin simsiz cihazınız uzaqdan idarə olunan SİM rejimində olduğu zaman, Siz zəng etmək, və ya zəngləri qəbul etmək üçün ancaq maşın üçün dəst kimi qoşulu uyğun aksessuardan istifadə edə bilərsiniz.

Simsiz cihazınız bu rejimdə olarkən onda proqramlaşdırılmış təcili yardım xidməti nömrələrindən başqa heç bir nömrəyə zəng etməyəcək.

Zəng etmək üçün Siz əvvəlcə kənardan idarə olunan SİM rejimindən çıxmalısınız. Əgər cihaz kilidlənmişsə, onu açmaq üçün öncə kilid kodunu daxil edin.

### Bluetooth bağlantısının açılması

1. Menyu > Parametrlər > Bağlantı > Bluetooth seçin.
2. Seçin Telefonumun adı və cihazınız üçün adı daxil edin.
3. Bluetooth əlaqəsini aktivləşdirmək üçün seçin Bluetooth > Yandır. göstərir ki, Bluetooth əlaqəsi aktivdir.
4. Cihazınızı audio aksessuara qoşmaq üçün Aud. aksessuara qoş və aksessuarı seçin.
5. Cihazınızı məsafədə olan istənilən Bluetooth cihazı ilə cütləşdirmək üçün seçin Cütlənmiş qurğular > Yeni qurğu əl. et.
6. Tapılmış cihaz üzərinə keçin və Əlavə et seçin.
7. Cihazınıza parolu daxil edin (16 işarəyə qədər) və digər Bluetooth cihazında əlaqəyə icazə verin.

Gizli rejimdə telefonun istifadəsi zərərli proqramlardan mühafizə olunmaq üçün ən etibarlı üsuldur. Etibar etmədiyiniz mənbələrdən Bluetooth əlaqəsini qəbul etməyin. Digər alternativ – Bluetooth funksiyasını söndürün. Bu, telefonun digər funksiyalarına təsir etməyəcək.

### Kompyuterinizi İnternetə qoşun

Siz uyğun olan kompyuterinizi İnternetə qoşmaq üçün Bluetooth texnologiyasından istifadə edə bilərsiniz. Cihazınız İnternetə qoşula bilməlidir (şəbəkə xidməti) və kompyuteriniz Bluetooth texnologiyasını dəstəkləməlidir. Cihazda şəbəkə giriş nöqtəsi (NAP) xidmətinə qoşulduqda və kompyuteriniz ilə cütləşdikdə cihazınız avtomatik olaraq İnternet ilə paket məlumatının bağlantısını açır.

### Paket məlumatı

Ümumi paket radio xidməti (GPRS) mobil telefonlara məlumatı İnternet protokolu ilə (IP) göndərmələri və qəbulu üçün istifadə olunan bir şəbəkə xidmətidir.

Xidmətdən necə istifadə ediləcəyini müəyyən etmək üçün Menyu > Parametrlər > Bağlantı > Paket məlumat > Pak. məlm. bağl. və aşağıdakılardan seç:

**Ehtiyac olduqda** — Proqram tələb etdiyi zaman paket məlumatının bağlantısını yaratmaq. Proqram sona çatdıqda qoşulma bağlanacaqdır.

**Həmişə onlayn** — Cihazı işə saldığınız zaman avtomatik olaraq paket məlumatı şəbəkəsinə qoşulmaq.

Siz cihazınızdan onu Bluetooth texnologiyası vasitəsilə uyğun olan kompyuterə qoşaraq modem kimi istifadə edə bilərsiz. Ətraflı məlumat üçün Nokia PC Suite sənədlərinə bax.

## Zəng və telefon

Menyu > Parametrlər > Zəng et seçin.

### Daxil olan zəngləri yönləndirmək

Zəng yönləndirməsi (şəbəkə xidməti) seçin. Ətraflı məlumat üçün xidmət təminatçınızla əlaqə saxlayın.

### Uğursuz cəhdən sonra avtomatik olaraq nömrəni on dəfə yığmaq

Avto. təkrar zəng > Aktivləşdir seçin.

### Zəng zamanı daxil olan zənglər haqda bildiriş almaq

Gözləmə xidm çağır > Aktivləşdir (şəbəkə xidməti) seçin.

### Zəng etdiyiniz şəxs üçün nömrənizi göstərmək yaxud gizlətmək

Nömrəmi göndər (şəbəkə xidməti) seçin.

Menyu > Parametrlər > Telefon seçin.

### Ekran dilini qurmaq

Dil parametrləri > Telefonun dili seçin.

### Aksessuarlar

Bu menyu cihaz yalnız uyğun aksessuara qoşulmuş olduğu halda mövcuddur.

Menyu > Parametrlər > Aksessuarlar seçin. Aksesuardan asılı olaraq aksessuarı və variantı seçin.

### Konfiqurasiya

Siz cihazınızı müəyyən xidmətlər üçün tələb edilən parametrlərlə konfiqurasiya edə bilərsiniz. Sizin xidmət təminatçınızda həmçinin bu parametrləri sizə göndərə bilər.

Menyu > Parametrlər və Konfiqurasiya seçin.

Aşağıdakılardan seçin:

**St. kon-ya param-i** — Cihazda saxlanılan xidmət təminatçılarını nəzərdən keçirmək və standart xidmət təminatçını təyin etmək.

**Büt. proqr.st. aktiv** — Dəstəklənən proqramlar üçün standart konfiqurasiya parametrlərini aktiv etmək.

**Üst. tut. giriş nöqt.** — Saxlanılan giriş nöqtələrini nəzərdən keçirmək.

**Şəxsi parametrlər** — Müxtəlif xidmətlərə yeni şəxsi ünvanlar əlavə etmək, onları aktiv etmək və ya pozmaq üçün. Yeni şəxsi ünvanı əlavə etmək üçün seçin Y. əlavə və ya Seçimlər > Yenisini əlavə et. Xidmət növünü seçin və tələb edilən məlumatı daxil edin. Şəxsi ünvanı aktiv etmək üçün ona doğru diyirləyin və seçin Seçimlər > Aktivləşdir.

### Zavod parametrlərini bərpa et

Telefonda zavod parametrlərini bərpa etmək üçün Menyu > Parametrlər > Zv. par. bərpası və aşağıdakılardan seçin:

**Yalnız parametrlər** — Heç bir şəxsi məlumatı silmədən bütün mövcudluq parametrlərini yenidən qurun.

**Hamsı** — Kontaktlar, mesajlar, mediya faylları və aktivləşdirmə kodları kimi bütün üstünlük parametrlərini yenidən qurun və bütün şəxsi məlumatları silin.

## Proqramlar

### Zəngli saat

Zəngli saatı istədiyiniz vaxta qura bilərsiniz.

#### Zəngli saatı qurmaq

1 Menyu > Proqramlar > Zəngli saat seçin.
2 Zəng vaxtını daxil edin.
3 Həftənin seçilmiş günlərində zəngi təkrarlamaq üçün Təkrarlanma: > Aktiv və günləri seçin.
4 Zəngli saatın tonunu seçin. Əgər siz radionu zəngli saatın siqnalı kimi seçsəniz, cihaza qulaqlığı qoşun.
5 Mürgüləmə fasiləsinin müddətini qurun və Saxla seçin.

### Zəngli saatı dayandırmaq

Dayan seçin. Əgər zəngli saat bir dəqiqə ərzində səslənərsə və ya Mürgülə seçilərsə, bu halda zəngli saat müvəqqəti dayanaraq mürgüləmə rejiminə keçir və sonra yenidən işə düşür.

## Qalereya

Qalereyada siz şəkilləriniz, video clip və musiqi fayllarınızı idarə edə bilərsiniz.

### Qalereya məzmununa baxmaq

Menyu > Proqramlar > Qalereya seçin.

### Fayla baxdığınız zaman şəkli ya videoklipi veb-xidmətinə yükləmək

Göndər > Vebə yüklə və arzu olunan yükləmə xidmətini seçin.

## Əlavələr

Cihazınıza onun üçün xüsusi yaradılmış bəzi oyun və Java™ proqramlar daxil ola bilər.

Menyu > Proqramlar > Əlavələr seçin.

### Oyun yaxud proqramı açmaq

Oyunlar, Kolleksiya yaxud Yaddaş kartı və oyunu və ya proqramı seçin.

### Oyun və proqram quraşdırılmaları üçün mövcud yaddaşın həcminə baxmaq

Seçimlər > Yaddaşın statusu seçin.

### Oyun yaxud proqramı yükləmək

Seçin Seçimlər > Yükləmələr > Oyun yükləmələri yaxud Proq. yükləmələri.

Sizin cihaz J2ME™ Java proqramlarını dəstəkləyir. Proqramı yükləməzdən əvvəl onun sizin cihazla uyğunluq təşkil etdiyini yoxlayın.

**Mühüm:** Yalnız Symbian Signed imzalı və ya Java Verified™ yoxlamasından keçən proqramlar kimi etibar etdiyiniz və zərərli proqramlara qarşı müvafiq təminat təklif edən qoşma proqramları yükləyin və istifadə edin.

Yüklənilmiş proqramlar Qalereya yerinə Proqramlar da saxlanıla bilər.

## Səsyazan

Menyu > Proqramlar > Səs yazan seçin.

### Yazılışa başlamaq

Yazılış nışanını seçin.

**Yazılışa zəng zamanı başlamaq**

Seçimlər > Daha artıq > Səs yaz seçin. Zəngi yazdığınız zaman telefonu qulağınıza yaxın adi vəziyyətdə saxlayın. Yazılış Səsyazmalar qovluğunda — Qalereya-da saxlanılır.

**Ən son yazılışa qulaq asmaq**

Seçimlər > Son yazılanı çal seçin.

**Son yazılışı multimedia mesajında göndərmək**

Seçimlər > Son yazılanı gönd. seçin.

# Veb ya İnternet

Telefonun brauzeri ilə müxtəlif İnternet xidmətlərinə daxil ola bilərsiniz. İnternet səhifələrin görünüşü ekranın ölçüsündən asılı olaraq fərqlənə bilər. Bəzi detalları İnternet səhifələrdə görməyə bilərsiniz.

Telefonunuzdan asılı olaraq brauzinq funksiyası Veb yaxud İnternet (bundan sonra Veb adlandırılacaq) kimi göstərilə bilər.

**Mühüm:** Yalnız etibar etdiyiniz və zərərli proqramlara qarşı müvafiq təminat təklif edən xidmətləri istifadə edin.

Bu xidmətlər, qiymətlər və təlimatların mövcudluqu barədə xidmət təminatçınızla əlaqə saxlayın.

Siz İnternet səhifələrin nəzərdən keçiirilməsi üçün tələb edilən konfiqurasiya parametrlərini xidmət təminatçınızdan konfiqurasiya mesajı vasitəsilə ala bilərsiniz.

## Veb xidmətlə əlaqə qur

Menyu > Veb > Ev seçin. Yaxud iş masasında 0 basıb saxlayın.

Xidmətə qoşulduqdan sonra səhifələri gözdən keçirə bilərsiniz. Cihaz düymələrinin funksiyaları müxtəlif xidmətlərdə fərqlənə bilər. Ekrandakı təlimatlara əməl edin. Ətraflı məlumat üçün xidmət təminatçınızla əlaqə saxlayın.

# Ovi-yə keçmək

Ovi-yə Nokia tərəfindən təmin olunan xidmətlər daxildir. Ovi ilə siz poçt hesabını yarada, şəkillərinizi və video kliplərinizi dostlarınız və ailənizlə paylaşa, səyahətləri planlaşdıra və xəritədə yerlərə baxa, cihazınıza oyunları, proqramları, video klipləri və tonları yükləyə və musiqini ala bilərsiniz. Mövcud xidmətlər region üzrə fərqlənə bilər və bəzi dillər dəstəklənmir.

Ovi xidmətlərinə daxil olmaq üçün www.ovi.com səhifəsinə keçin və öz Nokia hesabınızı qeydiyyatdan keçirin.

Xidmətlərin istifadəsinə dair ətraflı məlumat üçün hər xidmətin dəstək səhifələrinə baxın.

## SIM xidmətləri

Sizin SİM kart istifadə edə biləcəyiniz əlavə xidmətləri təmin edə bilər. Bu menyuya yalnız sizin SİM kart tərəfindən dəstəkləndikdə daxil ola bilərsiniz. Menyunun adı və məzmunu mövcud olan xidmətlərdən asılıdır.

## Ətraf mühitin qorunması üzrə məsləhətlər

### Enerjiyə qənaət

Əgər aşağıdakıları etsəniz (cihazınız üçün mövcud olduğu halda), batareyanızı tez-tez doldurmağa ehtiyac olmayacaq:

- İstifadə olunmadığı halda proqramları və məlumat bağlantılarını, misal üçün, Bluetooth bağlantınızı bağlayın.
- Əgər cihaz buna imkan verirsə, onu minimum işsizlik müddəti ötdükdən sonra enerjiyə qənaət rejiminə keçməsini qurun.
- Düymə səsləri kimi lazımsız səsləri söndürün.

### Tullantıların təkrar istifadəsi

Cihazın bütün materialları utilizasiya oluna bilər. Köhnə Nokia məhsullarınızın utilizasiyası haqda məlumat üçün www.nokia.com/werecycle və ya mobil cihazdan istifadə edərək www.nokia.mobi/werecycle veb-saytına keçin.

Siz qablaşdırma materiallarını və istifadəçi təlimatlarını öz yerli təkrar istifadə qaydalarınıza uyğun olaraq təhvil verə bilərsiniz.

Məhsulunuzda, batareyanızda, sənədlərinizdə yaxud paketlərdə üzərində xətt çəkilmiş təkərli zibil qutusu bütün elektrik və elektron məhsullar, batareyalar və akkumulyatorlarınızın istifadə müddətinin sonunda ayrıca utilizasiya olunduğunu xatırladır. Bu avadanlıq Avropa Birliyinə aiddir. Bu məhsulları çeşidləşməmiş məişət tullantılar kimi atmayın. Telefonunuzun ətraf mühitə təsir göstərdiyi xüsusiyyətləri

barədə əlavə məlumat əldə etmək üçün www.nokia.com/ecodeclaration veb-səhifəsinə baxın.

# Məhsul və təhlükəsizlik üzrə məlumat

**Aksessuarlar**

**Xəbərdarlıq:**
Bu xüsusi model üçün yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyalar, adapterlər və aksessuarlardan istifadə edin. Digər növün istifadəsi cihaza tətbiq edilən hər hansı təsdiq və zəmanətin də qüvvədən düşməsinə səbəb və təhlükəli ola bilər. Əsasən, təsdiq edilməyən batareya və ya adapterin istifadəsi yanğın, partlayış, sızma və ya digər təhlükələr yarada bilər.

Təsdiq edilmiş aksessuarların mövcudluğu haqqında məlumat almaq üçün dilerinizlə əlaqə saxlayın. Hər hansı aksessuarın güc şnurunu ayırarkən, şnurdan deyil ştepseldən tutub çəkin.

**Batareya**

**Batareya və adapter barədə məlumat**

Sizin cihaz təkrar doldurulan batareya ilə təchiz edilmişdir. Bu cihazda istifadə olunması nəzərdə tutulan batareya BL-4C. Nokia bu cihaza uyğun əlavə batareya modelləri düzəldə bilər. Bu cihaz üçün aşağıdakı adapterlər nəzərdə tutulmuşdur: AC-3 . Adapter modelinin dəqiq nömrəsi ştepselin növündən asılı olaraq müxtəlif ola bilər. Ştepselin variantı aşağıdakılardan birinə görə təyin edilir: E, EB, X, AR, U, A, C, K və ya UB.

Batareya yüzlərlə dəfə doldurula və boşaldıla bilər lakin vaxt keçdikcə batareya köhnəlir. Danışmaq və gözləmə rejimlərinin vaxtı normal vaxtdan qısadırsa batareyanı dəyişin. Yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyalardan istifadə edin və batareyanızın doldurulması üçün yalnız Nokia tərəfindən təsdiq edilmiş bu telefon üçün nəzərdə tutulmuş batareya dolduran qurğuları istifadə edin.

Batareya ilk dəfə istifadə edilərkən və ya batareya uzun müddət istifadə edilmədikdə enerji qurğusunu cihaza birləşdirmək, sonra ayırmaq və batareyanın doldurulmasının başlanması üçün təkrar birləşdirmək tələb oluna bilər. Batareya tam boşaldıqda ekranda batareyanın doldurulması indikatorunun peyda olması və ya zəng edilməsi üçün bir neçə dəqiqə tələb oluna bilər.

Təhlükəsiz çıxarılma. Batareyanı çıxarmazdan əvvəl həmişə cihazı söndürün və enerjı qurğusundan ayırın.

Düzgün doldurulma. Adapter istifadə edilmədikdə, onu elektrik rozetkadan və telefondan ayırın. Tam doldurulmuş batareyanı dolduran qurğuya birləşmiş saxlamayın, çünki normadan artıq batareyanın doldurulması onun istehlak müddətini qısalda bilər. İstifadə edilmədikdə tam doldurulmuş batareya enerjisini vaxt keçdikcə itirir.

Kəskin temperaturdan çəkinin. Həmişə batareyanı 15°C və 25°C (59°F və 77°F) dərəcə arasında saxlamağa çalışın. Kəskin temperaturlar batareyanın fəaliyyətini və ömrünü azaldır. Batareyası isti və ya soyuq olan cihaz qaydasında işləməyə bilər. Batareyanın iş keyfiyyəti donma nöqtəsindən aşağıda olan dərəcələrdə xüsusilə məhdud olur.

Qısa qapanmaya səbəb olmayın. Təsadüfi qısa qapanma dəmir pul, sıxac, və ya qələm kimi metal əşyalar birbaşa batareyanın müsbət (+) və mənfi (-) terminalları ilə əlaqədə olduqda baş verə bilər. (Bu batareyanın üzərində metal zolaqlar kimi görsənir.) Bu, misal üçün, ehtiyat batareyasını cibinizdə və ya pul kisəsində gəzdirdikdə baş verə bilər. Terminalların qısa qapanması batareyaya və ya əlaqədə olan əşyaya zərər verə bilər.

Tullama. Partlamağa səbəb ola biləcəyi üçün batareyaları oda atmayın. Batareyaları yerli qaydalara müvafiq olaraq məhv edin. Mümkün olduqda batareyanı təkrar emal etdirin. Ev tullantısı kimi atmayın.

Sızma. Batareyaları sökməyin, kəsməyin, açmayın, vurmayın, əyməyin və ya deşməyin. Batareya sızması baş verərsə, batareya mayesinin dəriyə və ya gözlərə təmas etməsindən çəkinin. Əgər bu baş verərsə, zərər görmüş nahiyələri dərhal su ilə yuyun və ya tibbi yardım üçün müraciət edin.

Zədələnmə. Batareyaya kənar əşyaları daxil etməyin, batareyanı təmir etməyin, suya və ya digər mayelərə salmayın. Batareyalar zədələnərsə, partlayışa səbəb ola bilər.

Düzgün istifadə. Batareyanı yalnız müvafiq məqsəd üçün istifadə edin. Batareyanın düzgün istifadə edilməməsi yanğın, partlayış və ya digər təhlükələrə səbəb ola bilər. Əgər cihaz və ya batareya sərt yerə düşsə və siz batareyanın zədələndiyinə əmin olsanız, istifadə etmədən onu xidmət mərkəzinə apararaq yoxladın. Heç vaxt zədələnmiş batareya və ya batareyanı dolduran qurğu istifadə etməyin. Onları kiçik uşaqların əli çatmadığı yerdə saxlayın.

**Cihazınızı qoruyun**

Sizin cihaz əla keyfiyyətli dizayn və sənətkarlıq məhsuludur və ehtiyatla qorunmalıdır. Aşağıda göstərilən təkliflər zəmanətin əhatə etdiyi sahələrin qorunmasına yardım edəcək.

- Cihazı tozlu, kirli yerlərdə istifadə etməyin və saxlamayın. Onun ayrıla bilən hissələri və elektron komponentləri zədələnə bilər.
- Cihazı yüksək və ya soyuq temperaturda saxlamayın. Yüksək temperatur elektron cihazların istehlak müddətini qısalda, batareyaları zədələyə və müəyyən plastik hissələri əyə və ya əridə bilər. Cihaz soyuq temperaturdan normal temperatura qayıtdıqda cihazın içində nəmlik yarana bilər bə bunun nəticəsində elektron sxemlərin plataları zədələnə bilər.
- Cihazı yalnız bu təlimatda göstərilmiş qaydada açın.
- Cihazı yerə salmayın, taqqıldatmayın və ya silkələməyin. Kobud rəftar daxili montaj platasını və dəqiq mexanika elementlərini qıra bilər.

- Cihazı təmizləmək üçün qatı kimyəvi maddələrdən, təmizləyici maddələrdən və ya güclü yuyucu vasitələdən istifadə etməyin. Cihazın səthini təmizləmək üçün yalnız zərif, quru parçadan istifadə edin.
- Cihazı rəngləməyin. Rəng hərəkət edən hissələri tıxaya və müvafiq əməliyyatlara mane ola bilər.
- Yalnız təchiz və ya təsdiq edilmiş əvəzedici antenalardan istifadə edin. Qadağan edilmiş antenaların, modifikasiyaların və ya aksessuarların istifadəsi sizin cihazı zədələyə bilər və radio cihazlarının istifadəsini tənzimləyən qaydaların pozulmasına səbəb ola bilər.
- Batareyanı bağlı otaqda doldurun.
- Saxlamaq istədiyiniz kontaktlar və təqvim qeydləri kimi məlumatın ehtiyat nüsxəsini çıxarın.
- Optimal iş rejimi üçün cihaz vaxtaşırı söndürülməlidir, bunun üçün cihazı söndürün və batareyanı çıxarın.

Yuxarıda göstərilən bütün təkliflər eyni dərəcədə sizin cihazınıza, batareyaya, adapterə və ya hər hansı aksessuara şamil edilir.

### Təkrar emal

Həmişə istifadə olunmuş elektron məhsullarınızı, batareyaları və qablaşdırma materiallarını onlar üçün ayrılmış yığım yerlərinə gətirin. Bu yolla siz idarə olunmayan tullantı yığımının qarşısını ala və materialların yenidən emal olunmasını təşviq edə bilərsiniz. Məhsula aid ətraf mühit məlumatını və Nokia məhsullarını necə yenidən emala təqdim etmək barədə məlumat üçün www.nokia.com/werecycle, və ya nokia.mobi/werecycle saytlarına baxın.

### Təhlükəsizliklə bağlı əlavə məlumat

**Qeyd:** Bu cihazın səthi nikel örtüyünə malik deyildir. Bu cihazın səthi paslanmayan poladdan ibarətdir.

### Kiçik uşaqlar

Sizin cihazınız və onun aksesuarları oyuncaq deyil. Onlar kiçik hissələrdən ibarət ola bilər. Onları kiçik uşaqların əli çatmadığı yerdə saxlayın.

### İş mühiti

Bu cihaz RT-yə məruz qalma ilə bağlı təlimatlara qulaqda normal istifadə vəziyyəti zamanı və ya ən azı 1.5 santimetrdən (5/8 düym) bədəndən uzaq olduqda cavab verir. Üstünüzdə gəzdirmək üçün daşıma qabı, kəmər qısqacı və ya tutqacda metal tərkibli olmamalı və bədəninizdən yuxarıda göstərilən məsafədə uzaq olmalıdır.

Məlumat faylları və ya mesajların ötürülməsi keyfiyyətli şəbəkə bağlantısı tələb edir. Məlumat faylları və mesajları belə bağlantı yaranana qədər ləngiyə bilər. Ötürülmə tamamlanana qədər ayrılma məsafəsinə dair təlimatlara riayət edin.

Cihazın hissələri maqnitdir. Metal əşyalar qurğuya təsir edə bilər. Kredit kartlarını və digər maqnit daşıyan vasitələri cihazın yanında qoymayın, çünki onlarda olan məlumat silinə bilər.

### Tibbi cihazlar

Simsiz telefonlar da daxil olmaqla radio ötürücü avadanlığın işlədilməsi qeyri-müvafiq mühafizə edilən tibb cihazlarının funksionalığına təsir edə bilər. Tibb cihazlarının xarici RF enerjisindən müvafiq şəkildə mühafizə edildiyini müəyyənləşdirmək üçün həkimlə və ya tibb cihazının istehsalçısı ilə məsləhətləşin. Təlimatlarda göstərilirsə cihazınızı söndürün. Hospitallar və ya səhiyyə müəssisələri xarici RF enerjisinə həssas olan avadanlıqlardan istifadə edirlər.

### İmplantasiya edilmiş tibbi cihazlar

Tibbi cihazların istehsalçıları məsləhət görür ki, tibbi cihazla ehtimal müdaxiləni aradan qaldırmaq üçün nəbzölçən və ya implantasiya edilmiş kardiyo defibrilyasiya cihazı ilə simsiz cihaz arasında minimum 15.3 sm (6 düym) məsafə olmalıdır. Belə cihazları olan şəxslər bunları etməlidirlər:

- Həmişə simsiz cihazları tibbi cihazdan 15.3 santimetrdən (6 düym) çox məsafədə saxlayın.
- Cihazı döş cibində daşımayın.
- Simsiz cihazı tibbi cihazdan əks tərəfdə qulağa taxın.
- Müdaxilə olduğuna dair hər hansı şübhə yaranarsa, simsiz cihazı söndürün.
- İmplantasiya edilmiş tibbi cihazlar üçün istehsalçının təlimatlarına əməl edin.

Simsiz cihazınızı implantasiya edilən tibbi cihazla necə istifadə etməyə dair suallarınız varsa, həkiminizə müraciət edin.

**Eşitmə cihazları**
Bəzi rəqəmli naqilsiz cihazlar qulaq aparatlarının işlərinə təsir edə bilər.

**Avtomobillər**
RF siqnalları elektron yanacaq injektor sistemləri, elektron antikilidləmə əyləc sistemləri, elektron sürət tənzimləyici sistemlər və hava yastığı sistemləri kimi avtomobillərdə düzgün quraşdırılmayan və ya lazımi qaydada qurulmayan elektron sistemlərə təsir göstərə bilər. Ətraflı məlumat üçün avtomobilinizin və ya onun avadanlığının istehsalçısı ilə əlaqə saxlayın.

Ancaq ixtisaslı işçilər avtomobilə cihaz quraşdırmalı və ya təmir etməlidir. Səhv quraşdırma və ya təmir etmə təhlükəli ola bilər və cihaza tətbiq edilən hər hansı zəmanəti yararsız edə bilər. Mütəmadi olaraq avtomobilinizə quraşdırılan cihazın düzgün quraşdırıldığı və işlədiyini yoxlayın. Cihaz, onun hissələri və ya aksessuarları ilə eyni bölmədə alışan mayelər, qazlar və ya partlayıcı maddələri saxlamayın və ya daşımayın. Unutmayın ki, hava yastıqları böyük qüvvə ilə açılır. Cihazınızı və ya aksessuarları hava yasrığının açıldığı hissələrə yerləşdirməyin.

Təyyarəyə minməzdən əvvəl cihazı söndürün. Təyyarədə simsiz telecihazlardan istifadə təyyarənin işləməsi üçün təhlükəli ola bilər və qeyri-qanuni ola bilər.

**Potensial partlayıcı mühit**
Mümkün partlayış ola biləcək hər hansı mühitlərdə cihazınızı söndürün. Dərc olunmuş bütün təlimatlara əməl edin. Belə ərazilərdə qığılcımlar bədən xəsarəti və ya ölümlə nəticələnən partlamaya yaxud yanğına səbəb ola bilər . Telefonu xidmət stansiyalarında olan qaz nasosları kimi yanacaq stansiyalarında söndürün. Yanacaq depolarında, saxlama və paylama məntəqələrində, kimyəvi zavodlarda və ya partlayış əməliyyatları keçirilən ərazilərdə məhdudiyyətlərə riayət edin. Potensial partlayış atmosferi olan ərazilər həmişə olmasa da çox vaxt aşkar qeyd edilirlər. Buraya nəqliyyat vasitənizin matorunu söndürülməsi məsləhət görülən ərazilər, qayıqlarda göyərtədən aşağı hissə, kimyəvi maddələrin ötürüldüyü və ya saxlandığı binalar daxildir, belə yerlərdə havada kimyəvi maddələr və atom, toz, və ya metal tozları kimi hissəciklər olur. Maye qazla işləyən avtomobil istehsalçılarına bu cihazın həmin avtomobillərin yaxınlığında istifadə eilib edilməyəcəyini soruşmalısınız.

**Təcili yardım zəngləri**
**Mühüm:** Bu cihaz da daxil olmaqla simsiz telefonlar radio siqnalları, simsiz şəbəkələri, daxili əlaqə xəttləri şəbəkələrini və istifadəçi üçün proqramlaşdırılmış funksiyaları istifadə edərək işləyir. Əgər cihazınız internet vasitəsilə səs zənglərini dəstəkləyirsə (internet zəngləri), həm internet zənglərini və həm də mobil telefonu aktivləşdirin. Hər ikisi aktivləşdirilərsə, cihaz həm mobil şəbəkə, həm də sizin internet zəngi provayderi ilə təcili yardım zəngləri etməyə çalışacaqdır. Hər şəraitdə bağlantıya təminat verilmir. Təcili tibbi yardım kimi əhəmiyyətli əlaqələr üçün Siz yalnız simsiz cihaza etibar etməməlisiniz.

Təcili yardım zəngini etmək üçün:

1. Cihaz iş rejimində olmadıqda onu yandırın. Müvafiq siqnal intensivliyini yoxlayın. Cihazınızdan asılı olaraq, aşağıdakıları tamamlamalı ola bilərsiniz:
   - Cihazınıza SİM kart daxil edin.
   - Cihazınızda aktivləşdirdiyiniz müəyyən zəng məhdudiyyətlərini götürün.
   - Profilinizi Qoşulu olmayan və ya Uçuş rejimi profilindən aktiv profillə dəyişdirin.
2. Ekranı təmizləmək və cihazı zənglər üçün hazır etmək üçün lazım olan qədər başa çatdırma düyməsini basın.
3. Olduğunuz yerin rəsmi təcili yardım nömrələrini daxil edin. Təcili yardım nömrələri ərazidən asılı olaraq fərqlənir.
4. Zəng düyməsini basın.

Təcili yardım zəngi edərkən tələb olunan məlumatı mümkün qədər dəqiq verin. Hadisə yerində sizin simsiz cihazınız yeganə kommunikasıya vasitəsi ola bilər. İcazə verilənədək zəngi bitirməyin.

**Sertifikat barədə məlumat (SAR)**
**Bu mobil cihaz radio dalğalara məruz qalma təlimatlarına cavab verir.**

Sizin mobil telefon radio qəbul ötürücüsü və edicisidir. Bu cihaz beynəlxalq qaydalar tərəfindən tövsiyyə edilmiş radio tezliyinə məruz qalma limitlərini aşmayan cihaz kimi hazırlanmış və istehsal edilmişdir. Bu təlimatlar İCNİRP müstəqil elmi təşkilat tərəfindən yaradılıb, belə ki, yaş həddi və sağlamlıq nəzərə alınmadan, hər bir kəsin müdafiəsini təmin etmək üçün hazırlanan təhlükəsizlik qaydalarından ibarətdir.

Mobil cihazlar üçün təsir standartı olaraq Xüsusi Absorbsiya Dərəcəsi (SAR) kimi tanınan ölçü vahidi istifadə edilir. ICNIRP təşkilatının təlimatında göstərilmiş SAR həddi 2.0 vat/kilogramdır (v/kg) 10 qram toxuma ortalamaqla. SAR üçün testlər bütün sınaqdan keçirilmiş tezlik diapazonlarında cihaz ən yüksək təsdiq edilmiş güc səviyyəsində məlumatı ötürərkən standart iş vəziyyətində keçirilir. İstifadə edilən qurğunun SAR səviyyəsi maksimal dərəcədən aşağı ola bilər, çünki qurğunun ancaq şəbəkə ilə əlaqə yaratmaq üçün enerji verməsi tələb olunur. Bu rəqəm bir sıra faktorun təsiri ilə dəyişir; məsələn sizin şəbəkə baza stansiyasına nə qədər yaxın məsafədə olmağınızdan asılıdır.

Bu cihazın qulaqda istifadəsi üçün ICNIRP təşkilatının təlimatında göstərilən ən yüksək XAD dərəcəsi belədir 0.82 W/kg .

Cihaz aksessuarlarının istifadəsi SAR dərəcəsinə təsir edə bilər. Milli hesabatçılıq tələblərindən və şəbəkə diapazonundan asılı olaraq SAR dərəcələri fərqlənə bilər. SAR barədə əlavə məlumat mal haqqında məlumatın ardınca www.nokia.com saytında verilə bilər.

UYĞUNLUQ BƏYANNAMƏSİ

CE 0434

Bununla, NOKİA KORPORASIYASI bildirir ki, bu RM-618 məhsulu 1999/5/EC Direktivinin əsas tələblərinə və digər müvafiq göstərişlərinə cavab verir. Uyğunluq Bəyannaməsinin surətini http://www.nokia.com/phones/declaration_of_conformity/ internet saytında əldə etmək olar.

© 2009 Nokia. Bütün hüquqlar qorunur

Nokia, Nokia Connecting People və Navi NOKİA Korporasiyasının qeydiyyata alınmış əmtəə nişanlarıdırlar. Nokia tune Nokia Korporasiyasının səsli əmtəə nişanıdır. Bu sənəddə qeyd edilən digər məhsulların və ya şirkətlərin adları onların müvafiq sahiblərinin əmtəə nişanları ola bilər.

Bu sənəddə göstərilən məlumatın Nokia şirkətinin əvvəlcədən alınmış yazılı razılığı olmadan hər hansı şəkildə müəyyən bir qisminin və ya tam surətinin çıxarılması, köçürülməsi, yayılması və ya saxlanılması qadağan edilir. Nokia daimi inkişaf siyasətini tətbiq edir. Nokia bu sənəddə göstərilən istənilən məhsula əvvəlcədən xəbərdarlıq etmədən dəyişiklik etmək və ya təkmilləşdirmək hüququna malikdir.

Includes RSA BSAFE cryptographic or security protocol software from RSA Security.

Java POWERED

Java is a trademark of Sun Microsystems, Inc.

Bu məhsul (i) Fərdi və qeyri-ticari fəaliyyətlə məşğul olan istehlakçı tərəfindən MPEG-4 Visual Standartına uyğun şəkildə şifrələnən məlumatın fərdi və qeyri-ticari istifadəsi üçün və (ii) lisenziyalaşdırılmış video təminatçısı tərəfindən təmin edilən MPEG-4 videosunun istifadəsi üçün MPEG-4 Visual Patent Portfolio Lisenziyası ilə təmin olunub. Başqa məqsədlə istifadə olunması üçün heç bir əlavə lisenziya verilmir və ya nəzərdə tutulmayacaqdır. Köməkçi, daxili və kommersiya istifadəsi ilə əlaqədar olan əlavə məlumat MPEG LA, LLC-dən əldə edilə bilər. Bax: http://www.mpegla.com.

MÜVAFİQ QANUNVERİCİLİKDƏ İCAZƏ VERİLƏN MAKSİMUM DƏRƏCƏDƏ NOKİA, YA DA ONUN HƏR-HANSI BİR LİSENZİYALAŞDIRANI HƏR-HANSI MƏLUMATIN, GƏLİRİN İTMƏSİ VƏ YA HƏR-HANSI XÜSUSİ, TƏSADÜFİ, ƏHƏMİYYƏTLİ, VƏ YA DOLAYI YOLLA VURULAN ZİYANLARA GÖRƏ HEÇ BİR MƏSULİYYƏT DAŞIMIR.

BU SƏNƏDIN MƏTNI "OLDUĞU KIMI" TƏQDIM EDILIR. MÜVAFIQ QANUNVERICILIYIN TƏLƏBLƏRI ISTISNA OLMAQLA, BU SƏNƏDIN DƏQIQLIYI, ETIBARLILIĞI VƏ YA MƏTNINƏ DAIR HEÇ BIR BIRBAŞA VƏ YA ƏLAQƏLƏNDIRILMIŞ ZƏMANƏT, O CÜMLƏDƏN (LAKIN BUNUNLA MƏHDUDLAŞDIRILMADAN) ƏMTƏƏ VƏZIYYƏTI VƏ XÜSUSI MƏQSƏDLƏR ÜÇÜN YARARLIĞINA DAIR ƏLAQƏLƏNDIRILMIŞ ZƏMANƏT VERILMIR. NOKIA ISTƏNILƏN VAXT BU SƏNƏDIN ƏVVƏLCƏDƏN XƏBƏRDARLIQ ETMƏDƏN DƏYIŞDIRILMƏSI VƏ YA ISTIFADƏDƏN ÇIXARILMASI HÜQUQUNA MALIKDIR.
Bəzi məhsulların, qoşma proqramların və xidmətlərin mövcudluğu regiondan asılı olaraq fərqlənə bilər. Xahiş olunur ki, əlavə məlumat üçün və dil seçiminin mövcudluğu ilə bağlı öz Nokia dilerinizə müraciət edəsiniz. Bu cihazda ABŞ və digər ölkələrin ixracat qanun və qaydalarına tabe olan əşya, hər-hansı bir texnologiya, və ya proqram ola bilər. Qanunvericiliyə zidd olan yayınmalar qadağan edilir.
Sizin cihazınızla birgə verilən üçüncü tərəfin proqramları ola bilsin ki, Nokia ilə heç bir əlaqəsi, və ya ona aidiyyəti olmayan şəxslər, ya da müəssisələr tərifindən istehsal olunublar. Nokia üçüncü şəxslərin qoşma proqramları ilə bağlı müəlliflik hüquqlarına və ya əqli mülkiyyət hüquqlarına malik deyil. Bununla bağlı olaraq Nokia bu proqramların son istehlakçı dəstəyi, proqramların işləməsi və ya onların daşıdığı məlumat ilə bağlı heç bir məsuliyyət daşımır. Bu üçüncü-tərəf proqramlarla bağlı Nokia zəmanət vermir. SİZ GƏBUL EDİRSİNİZ Kİ, PROQRAM VƏ/VƏ YA QOŞMA PROQRAMLAR (BİRLİKDƏ PROQRAMLAR) OLDUĞU KIMI BİRBAŞA VƏ YA İCBARI ZƏMANƏTSİZ VƏ TƏTBİQ EDİLƏN QANUNVERİCİLİYİN YOL VERDİYİ MAKSİMUM DƏRƏCƏDƏ TƏMİN EDİLİR. NOKİA ŞİRKƏTİ VƏ ONUN FİLİALLARI HEÇ BİR TƏSDİQ VƏ YA BİRBAŞA YAXUD İCBARİ ZƏMANƏT VERMİR, O CÜMLƏDƏN PROQRAMIN ADI, SATIŞ VƏ YA MÜƏYYƏN MƏQSƏD ÜÇÜN YARARLIĞINA VƏ YA PROQRAMIN ÜÇÜNCÜ ŞƏXSLƏRİN PATENT, MÜƏLLİFLİK, ƏMTƏƏ NİŞANLARI İLƏ BAĞLI VƏ DİGƏR HÜQUQLARININ POZULMAYACAĞINA DAİR ZƏMANƏT VERMİR.

/Məsələ 1.1 AZ

# İndeks


## A

aksessuarlar 29
audio mesajları 20

## B

batareya 9
batareyanın
— doldurulması 11
batareyanın doldurulma səviyyəsi indikatoru 12
brauzer 31

## C

cihazın işəsalınması/söndürülməsi 11
cihaz proqramını
— yeniləyir 7

## D

dəstək 8
displey 25
düymə qoruyucusu 13
düymələr və hissələr 8

## E

elektron məktub 19

## Ə

əlavələr 30
əlavələri 19

## F

fləş mesajları 20

## G

giriş kodları 6

## H

hesablar 19

## İ

internet 31
iş masası 12

## J

jurnal 21

## K

kamera 23
Klaviatura kilidi 13
konfiqurasiya 29

## Q

Qalereya 30
qayış 15
qulaqlıq 14
quraşdırma
— displey 25

## M

media pleyer 22
melodiyalar 25
menyular 17
mesajlar 18
mesaj mərkəzi nömrəsi 18
mesaj parametrləri 20
məktub 19
məktub yaradılması üzrə 19
məlumatın nüsxəsinin çıxarılması 26
mətn mesajları 18
mətn yaz 16
mətn yığımı 16
microSD card 10

## N

Nokia dəstək məlumatı 8

## O

Ovi 31
oyunlar 30

## P

parametrlər 25
parametrlərin bərpası 29
parollar 6
PIN kod 6

profillər 25
proqram yeniləmələri 6
proqram yenilənmələri 7

**R**

radio 23

**S**

sadələşdirilmiş mətn daxiletməsi 16
səs mesajları 20
səsyazan 30
SIM kart 9
siqnal gücü indikatoru 12
siqnal işığı 13
sinxronlaşdırma 26
SM (sürətli mesajlaşma) 19
status indikatorları 12
sürətli düymələr 26
sürətli yığım 15

**Ş**

şəkillər 24
şəkil rejimi 23

**T**

tarix və vaxt 26
telefon parametrləri 28
təhlükəsizlik kodu 6

**U**

USB kabel qoşulması 14

**V**

video kliplər 24
video rejimi 23

**W**

Web 31

**Y**

yaddaş kartı 10
yeniliklər 7
— cihaz proqramı 6
— tapşırıqlar 6

**Z**

zavod parametrləri, bərpa 29
zənglər 15
zəngli saat 29